# XIX əsr Azərbaycan ədəbiyyatı və incəsənətinin intibah dövrü



**Mürsəl İrəvanlı,**

**Yazıçı-publisist, M. Qorki adına Beynəlxalq mükafat laureatı**
**Gəncə şəhəri**

**I yazı**

***...Təhkimçi feodal zülmünün şiddətlənməsi və buna qarşı kəndli hərəkatının getdikcə genişlənməsi şəraitində şifahi xalq yaradıcılığı da inkişaf etməkdə idi. Bu zaman xalq sənətkarları tərəfindən nağıl, dastan, bayatı, mahnı, aşıq qoşmaları kimi bədii formalarda zəngin şifahi ədəbiyyat yarınırdı. Qəsidə, mərsiyə və təriqət şeirlərindən fərqli olaraq, bunlar xalq həyatından doğur, xalqın zövqünü oxşayır, ümumi mənafeyə xidmət edirdi. Cəfər Cabbarlı bu barədə yazırdı: "Bu ədəbiyyat (sxolistik, mədhiyyə ədəbiyyatı nəzərdə tutulur – M.İ.) ilə yanaşı olaraq o, yəni adi xalq özü üçün ayrı bir ədəbiyyat yaratmış və öz ruhundan doğmuş, onun ruhunu və mənəviyyatını təsvir edən, zövqünü oxşayan bu doğma yavrusunu can kimi qucub onunla yaşamışdır. Sarayları mədh edən, ...yapma, cansız, duyğusuz, qeyri-təbii ədəbiyyat onun dördtelli sazına uymamış və özü yaratdığı kərəmləri, qəribləri, tapdıqları ilə gün keçirmiş, onların kədərlərinə ağlayaraq, qələbələrinə sevinərək, son zamanlaradək gəlmişdir..."***

(Bax: C.Cabbarlı. Azərbaycan ədəbiyyatının son vəziyyəti "Xalq ədəbiyyatı həyatdan doğar", "Kommunist" qəzetinə əlavə, 1925, N18).

Şifahi xalq yaradıcılığının ən böyük qolunu təşkil edən aşıq şeiri bu dövrdə daha sürətli inkişaf yoluna cığır açmışdı.

***Xalq aşığı əlində saz kənd və şəhərləri dolaşır, toylarda, bayramlarda, elin qurduğu kef məclislərində iştirak edir, saz çalır, nəğmə və dastan qoşur, oxuduğu lirik şeirlərlə xalqa mütərəqqi fikirlər, nəcib duyğular aşılayardı. Aşıq bütün varlığı ilə xalqa bağlıdır. O, öz xalqı ilə bir yerdə qaynayıb qarışır, onun sevinc və kədərinə şərik olur, onunla birgə nəfəs alır. Aşığın simasında xalq özünün təsəllisini tapır, dərdlərini onunla birgə nəfəs alır. Aşığın simasında xalq özünün təsəllisini tapır, dərdlərini onunla bölüşdürür.***

Mahmud Kaşğari yazırdı: "Aşıq şeirinin ən çox işlənən və geniş yayılan forması qoşmadır. Qoşma Azərbaycan şeirinin qədim şəklidir. Bəzi mənbələrdən qoşmanın hələ V-VI əsrlərdə geniş yayıldığını öyrənirik. Deməli, bu forma Azərbaycan şifahi ədəbiyyatını daha da qədim dövrlərə aparır..." (Bax: Mahmud Kaşğari. Divani lüğatüt-türk, İstanbul, hicri 1333).

Çox yayılmış formalar içərisində gəraylı xüsusi yer tuturdu. Gəraylı əsas etibarilə məhəbbət lirikası sahəsində işlənirdi. Bu dövrün aşıq şeirində qoşmanın təcnis, qıfılbənd, dodaqdəyməz, diltərpənməz, nöqtəsiz və s. şəkillərinə də rast gəlinir. Aşıqlar divan, qatar, zəncirləmə, cığalı müxəmməs müxəmməs və s. şəkillərdə də şeirlər yaradırdılar.

XIX əsrin birinci yarısında yetişən ustad aşıqlar içərisində Göyçə aşıqları önəmli yer tuturdu, diqqəti daha çox cəlb edirdilər. Bu mahalın Daşkənd, Qızılvəng, Ağkilsə, Şişqaya, Zod, Güvəndik, Nərimanlı (Əliquluşağı) və başqa kəndlərində çoxsaylı xalq aşıqlarının yaşayıb yaratdıqları məlumdur. Bunlardan Aşıq Alı (1817-1907), Aşıq Musa (1795-1840), Aşıq Ələsgər (1821-1926) şifahi xalq şeirinin inkişafında böyük rol oynamışlar.

Aşıq Alı Basarkeçər rayonunun Qızılvəng kəndindən, Allahverdi adlı kasıb bir kəndlinin oğlu idi. Təqribən 90 il ömür sürmüş və 70 ildən artıq aşıqlıq sənətilə məşğul olmuşdur. Bu ustad aşıq saysız-hesabsız qoşmalar, müxəmməslər, divanlar demiş, aşıq şeirinin ən çətin formalarında öz istedadını nümayiş etdirmiş, dastanlar yaratmış, bir neçə saz havası düzəltmişdi. XIX əsrdə Göyçə mahalında yetişən xalq aşıqlarının çoxu onun şagirdi olmuşdu.

Göyçə mahalında yetişən ustad xalq aşıqlarından biri də Aşıq Musa idi. O, Qaraqoyunlu kəndində doğulmuş və 1840-cı ildə, təxminən 45 yaşında vəfat etmişdir. O, oynaq, nikbin, qoşmalar müəllifidir.

Aşıq şeirinin istedadlı nümayəndələrindən biri də xanım aşıq Pəridir. O, Araz çayı sahilində, Şərur rayonunun keçmiş Maralyan kəndindən çıxmışdı. Yeniyetmə qız ikən ailə Şuşaya köçmüşdü. Az bir zamanda öz şeirləşmələri ilə Qarabağlı müasirləri arasında böyük nüfuz qazanmış və aşıq şeirinin ilhamvericilərindən biri olmuşdur. F.Köçərli bu xüsusda yazır: "Özünün ağıl və istedadı ilə çoxlarında heyrət doğuran gözəl və gənc şairə Aşıq Pəri o zamankı savadlı və təhsil görmüş ədəbi simaların diqqət mərkəzində dayanırdı. Onun üstünə hər tərəfdən mənzum və mənsur məktublar axışıb gəlirdi. Şairə də öz növbəsində ona hörmət göstərənləri özünün təmiz məhəbbət və səmimi dostluq hisslərini ifadə edən ahəngdar şeirlərilə ruhlandırırdı..."

***(Bax: F.Koçarlinskiy. Literatura Azerbaydjanskix tatar. Tiflis. 1903, str. 17-18).***

***Mirzəcan Mədədov, Məhəmməd bəy Aşiq, Cəfərqulu ağa Həva Mirzə, Həsən Mirzə və başqaları ilə apardığı deyişmələrdə Aşıq Pəri öz istedadı, bədii zəkası və hazırcavablığı ilə onlara üstün gəlirdi. Dərin, səmimi məhəbbət onun şeirlərinin təbii olaraq ruhu və canı idi.***

**Eşqinin əlindən gedərəm dada,**
**Dərdim olur gündən-günə ziyada.**
**Şiveyi-rəftarın düşəndə yada,**
**Bağrımın başında millər oynaşır.**

**Dad elərəm, haray naşı əlindən,**
**Yandı ciyər eşq atəşi əlindən.**
**Mən nə deyim gözüm yaşı selindən,**
**Ürküşür sonalar, göllər oynaşır!**

A.Berje öz məcmuəsinə almanca yazdığı müqəddimədə Aşıq Pəri haqqında aşağıdakı sətirləri yazır: "1829-cu ilin sonlarında Araz çayı sahilində olan kiçik Maralyan kəndində 18 yaşında bir qız ortaya çıxdı. Eşidilməmiş bir gözəlliyi olan bu qızın adı Aşıq Pəri idi... Onun deyişmələri, hazırcavablıqla dediyi şeirləri diqqəti cəlb edirdi. Dövrünün az-çox istedadlı şairləri ilə şeirləşmədə o, həmişə müvəffəqiyyət qazanırdı və heç kəsə qalib gəlməyə imkan verməzdi. Gürcüstanda general Yermolovun yanında tərcüman sifətilə qulluq edən Qarabağ ermənilərindən Mirzəcan Mədədov adında bir şəxs var idi. Bu adam o zamanlar Qarabağ qışlağında sakin olan Aşıq Pərinin yanına getmiş və onu şeirləşməyə dəvət etmişdi. Onların arasında baş tutan bu görüşdə şübhəsiz ki, xanım aşıq qalib çıxmış, onun söylədiyi beytlər tez bir zamanda xalq arasında geniş əks-səda doğurmuşdur..."

(Bax: A.Berje, Məcmueyi-əşari şüərayi – Azərbaycan, Leypsiq, 1867, almanca).

Həmin dövrdə Azərbaycanın qərb bölgəsində Varxiyanlı Aşıq Məhəmməd, Şəmkirli Aşıq Hüseyn, Yəhya bəy Dilğəm kimi ustad xalq aşıqları yetişmişdi.

Zaqatalanın Varxiyan kəndində doğulmuş Aşıq Məhəmməd XIX əsrin 60-cı illərinə qədər yaşamışdır. Onun qoşmaları, gəraylıları, təcnisləri, müxəmməsləri vardır. Ömrünü kənddə, təbiət qoynunda keçirən aşıq öz qoşmalarında sıx-sıx təbii təsvir vasitələrindən, cinaslardan geniş istifadə etmişdir. Cəmiyyət, təbiilik və təravət onun şeirləri üçün xarakterik xüsusiyyətlərindəndir.

Varxiyanlı Aşıq Məhəmməddən sonra bu ətrafda yetişən ikinci böyük xalq aşığı Şəmkirli Aşıq Hüseyn idi. O, Şəmkir rayonunun Qapanlı kəndində ortabab kəndli ailəsində anadan olmuş, sonralar rayonun Qaraca Əmirli kəndinə köçüb ömrünün sonuna kimi burada yaşamışdı. Aşıqlıq sənətini Gəncənin yaxınlığında yaşayan və "Məcnun" təxəllüsü ilə məşhur olan Kərbəlayı Bağırdan öyrənmişdi. Gənc yaşlarından saz çalmağa və qoşmalar düzməyə başlamışdı. Şəmkirli Aşıq Hüseyn aşıq şeirinin müxtəlif növlərində çoxlu şeirlər yaratmışdı. Özü bu barədə deyir ki:

**Varımdır altı yüz divanü təcnis,**
**Yeddi yüz müəmma, qıfılbənd, təxmis.**
**Səksən bəhri-təvil, nazənin, hərgiz,**
**Mövlam versə Naxçıvana de gəldim!**

***Qıfılbənd və deyişmələrdən Aşıq Hüseynin tarixdən, qədim əfsanələrdən xəbərdar, özünə görə geniş görüş dairəsinə malik, hazırcavab bir aşıq olduğu görünür. Tərbiyəvi, nəsihətamiz məzmunda çoxlu şeir yaradan Aşıq Hüseyn qoşmalarından birində deyirdi:***

**(ardı gələn sayımızda)**



***Xalq aşığı əlində saz kənd və şəhərləri dolaşır, toylarda, bayramlarda, elin qurduğu kef məclislərində iştirak edir, saz çalır, nəğmə və dastan qoşur, oxuduğu lirik şeirlərlə xalqa mütərəqqi fikirlər, nəcib duyğular aşılayardı. Aşıq bütün varlığı ilə xalqa bağlıdır. O, öz xalqı ilə bir yerdə qaynayıb qarışır, onun sevinc və kədərinə şərik olur, onunla birgə nəfəs alır. Aşığın simasında xalq özünün təsəllisini tapır, dərdlərini onunla birgə nəfəs alır. Aşığın simasında xalq özünün təsəllisini tapır, dərdlərini onunla bölüşdürür***